# “Doğma torpaq” ekranda

## *Azad Qarabağda çəkilən ilk film*

**Nizami Kino Mərkəzində 44 günlük Vətən müharibəsindən sonra azad olunmuş ərazilərdə çəkilmiş ilk tammetrajlı bədii film olan “Doğma torpaq”ın premyerası olub.**




Filmin istehsalı Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Kino Agentliyi və “Narimanfilm” kinostudiyasına aiddir. Ekran əsərinin ərsəyə gəlməsində “PASHA Holding”, “United Alliance group”, “Gazelli Group”, “AzMade Group”, CMS, “Azersun Holding” şirkətləri, “Caspian Energy Club” və İTV iştirak edib.

Nümayişdən əvvəl məlumat verilib ki, quruluşçu rejissoru və ssenari müəllifi İlqar Safat, prodüseri isə Nəriman Məmmədov olan “Doğma torpaq”da Azərbaycanın yaxın tarixinin üç önəmli mərhələsi işıqlandırılır. Bunlar soydaşlarımızın dədə-baba yurdları olan Qərbi Azərbaycandan qovulması, I Qarabağ müharibəsi, xüsusən Xocalı soyqırımı və 44 günlük Vətən müharibəsində Ordumuzun şanlı Qələbəsidir.

Ekran əsərinin süjet xəttinə görə hadisələr 1992-ci ildə cərəyan edir. Müstəqil Azərbaycan Qarabağda erməni separatçılarına qarşı mübarizə aparır. Jurnalist Miranda Qafqaz bəbiri haqqında sənədli film çəkmək üçün Londondan Azərbaycana gəlir. Tale onu kəşfiyyatçı Emillə bir araya gətirir. Onlar birlikdə çətin sınaqlardan keçirlər, bu zaman Miranda Qafqaz bəbiri və Azərbaycanın müasir tarixinin faciəli səhifələri haqqında çox şey öyrənir.

“Doğma torpaq” bədii filminin quruluşçu operatoru Konstantin Esadze, bəstəkarı Araz Hümbətli, səs rejissoru İvan Qusakovdur. Əsas rolları Rüstəm Cəbrayılov və Alina Vorontsova (Rusiya) canlandırırlar. Xalq artistləri Hacı İsmayılov və Məbud Məhərrəmov, aktyorlar Azər Aydəmir, Qorqud Cəfərli, Rəşad Səfərov, Eldar Bağırbəyov, Əjdər Zeynalov, Yaroslav Trifonov, Əminə Abbasova və başqaları da filmdə çəkiliblər.

***XQ***

Xalq qəzeti.-2025.-№78. 20 aprel.- S.10.